**Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2015-ci il martın 2-də Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1205 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi və ticarət əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin: [1]

***Komissiyanın həmsədri***

*Azərbaycan Respublikasının energetika naziri*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası ədliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*
*Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini*
*Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti*
*Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fövqəladə və səlahiyyətli səfiri.*

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 avqust 2015-ci il
1345

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384**)
2. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)
3. 13 iyul 2018-ci il tarixli **329** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 14 iyul 2018-ci il, 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1575**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384**) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində "**Namiq Xəlilov – Azərbaycan Respublikası**

**Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisi**" sözləri çıxarılmışdır.

13 iyul 2018-ci il tarixli **329** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 14 iyul 2018-ci il, 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1575**) ilə 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

| | | |
|---|---|---|
| | | ~~**Komissiyanın həmsədri**~~ |
| ~~Şahin **Mustafayev**~~ | – | ~~Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri~~ |
| | | ~~**Komissiyanın üzvləri:**~~ |
| ~~Vaqif **Əliyev**~~ | – | ~~Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin birinci müavini~~ |
| ~~Xələf **Xələfov**~~ | – | ~~Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Toğrul **Musayev**~~ | – | ~~Azərbaycan Respublikası ədliyyə nazirinin müavini~~ |
| ~~Gülməmməd **Cavadov**~~ | – | ~~Azərbaycan Respublikası energetika nazirinin müavini~~ |
| ~~Elmir **Vəlizadə**~~ | – | ~~Azərbaycan Respublikası rabitə və yüksək texnologiyalar nazirinin müavini~~ |
| ~~Rauf **Hacıyev**~~ | – | ~~Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini~~ |
| ~~Seyfəddin **Talıbov**~~ | – | ~~Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Ceyhun **Bayramov**~~ | – | ~~Azərbaycan Respublikası təhsil nazirinin müavini~~ |
| ~~Nigar **Əliyeva**~~ | – | ~~Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~ |
| ~~İntiqam **Babayev**~~ | – | ~~Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini~~ |
| ~~Səfər **Mehdiyev**~~ | – | ~~Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Xəqani **Abdullayev**~~ | – | ~~Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin müavini~~ |
| ~~Elşad **Nəsirov**~~ | – | ~~Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti~~ |
| ~~Tahir **Tağızadə**~~ | – | ~~Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fövqəladə və səlahiyyətli səfiri~~ |
| ~~*Namiq **Xəlilov***~~ | – | ~~*Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisi.*~~ |